# Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş elmi-praktiki konfrans keçirildi

*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr olunmuş "Azərbaycanda ordu quruculuğu və hərb elmi" mövzusunda elmi-praktiki konfrans keçirildi.*



Tədbirdə Müdafiə Nazirliyinin, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisi general-leytenant Heydər Piriyev bildirdi ki, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. "Bu il Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun əsasının qoyulmasının 100-cü ili tamam olur. Cümhuriyyət ordusunun yaradılması, onun qısa zamandan sonra döyüşkən bir qüvvəyə çevrilməsi hər şeydən əvvəl Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin düzgün siyasətinin uğurlu nəticəsi idi. Cümhuriyyət hökumətinin rəhbərliyi Cümhuriyyət ordusunu müstəqil dövlətin mühüm atributu, müstəqilliyin müdafiəçisi kimi görürdü. Bu məqamlar Cümhuriyyətin hərbi siyasətinin də mahiyyətini təşkil edirdi".

Hərbi Akademiyanın rəisi onu da qeyd etdi ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Cümhuriyyət ordusu ilə başlanan hərb tariximizi, ordu quruculuğu təcrübəsini yeni bir səviyyəyə qaldırdı, müasir, müstəqil ordumuzun əsasını qoydu, Azərbaycanın müstəqilliyini qorumağa qadir olan bir ordunun memarına çevrildi: "Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer tutmaqdadır və bu nailiyyətin əldə edilməsi ordu quruculuğuna respublika rəhbərliyinin gündəlik diqqətinin və qayğısının nəticəsidir. Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yeni və daha yüksək səviyyəyə qalxması-nı 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin cəbhə xəttindəki təxribatlarının qarşısının alınması zamanı göstərdiyi nəticələr bir daha sübut etdi".

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri, hüquq elmləri doktoru, professor İsaxan Vəliyev və Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və Elm şöbəsinin dosenti, tarix elmləri doktoru Mehman Süleymanov qeyd etdilər ki, Cümhuriyyət dövründə yaranan ordu Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunmasında xalqın və dövlətin ona bağladığı ümidləri doğrulda bilib.

Daha sonra Azərbaycan Ordusunun yaranmasının 100 illiyinə həsr edilmiş kitablar tədbir iştirakçılarına təqdim edildi.

Konfransın sonunda Silahlı Qüvvələrin Hərbi Akademiyasının əməliyyat-taktiki fakültəsinin məzunları adından Silahlı Qüvvələrin Hərbi Akademiyasına xatirə hədiyyəsi verildi.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**